## Xizəkçilik mövsümü başlandı



Dekabrın 18-də rayonumuzdakı "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksində yeni xizəkçilik mövsümünün açılışı olub. Burada dağ-xizək idman növü üzrə ödənişsiz təlimlərə start verilib.

Kompleksdə növbətçi və həkim qrupları fəaliyyət göstərir. Şagirdlərin böyük marağına səbəb olan bu təmənnasız xizəkçilik təlimləri martın sonunadək davam edəcək. Ölkəmizdə qış turizminin inkişafına kömək məqsədilə keçirilən təlimlərdə iştirak edən yeniyetmə və gənclər gələcəkdə müxtəlif yarışların təşkili, onların yerli və beynəlxalq turnirlərdə iştirakının təmin olunması nəzərdə tutulur. Şagirdlər üçün ötən xizəkçilik mövsümündə də pulsuz təlimlər təşkil edilmişdi və ümumilikdə 1000-dən çox məktəbli təlimlərdən bəhrələnərək xizəkçiliyin sirlərinə yiyələnib.

## Şahmat üzrə rayon birinciliyi

Şahmat idman növünün kütləviliyini təmin etmək, yarış iştirakçılarının idman ustalıqlarının artırılması və təkmilləşdirilməsi, həmçinin müvafiq yaş qrupları üzrə rayonun yığma komandasının tərkibini müəyyən etmək məqsədilə Qəbələ Rayon Gənclər və İdman İdarəsi tərəfindən 31 dekabr—Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş oğlan və qızlar arasında şahmat üzrə rayon birinciliyi keçirilmişdir.

Birinciliyin açılış mərasimində rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov çıxış edərək 31 dekabr—Dünya Azərbaycanlılarının Həmrəylik Günü və qarşıdan gələn Yeni il münasibətilə iştirakçıları təbrik edərək onlara uğurlar arzuladı.

8, 10, 12, 14 və 16 yaş qruplarında yeniyetmə və gənclər dairəvi sistem üzrə mübarizə aparmışlar. Yarışda 60-a qədər oğlan və qız öz qüvvələrini sınamışlar.

Birinciliyin yekununa əsasən oğlanlar arasında Fərhad Əliyev, Sahib Abdullayev, Ümid Abdulkərimli, Sabir Abdullayev, Məcid Mahmudlu, qızlar arasında isə İlahə Abdulkərimli, Xədicə Şərifova, Həcər Kərimova, Fərqanə Əfəndiyeva birinci yerə çıxmışlar. Hər yaş qrupunda I, II və III yeri tutan qaliblərə rayon gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

**Məhəmmədəli Səfərçinov,**
**Gənclər və İdman idarəsinin baş məsləhətçisi.**

## ELANLAR

Qəbələ rayon Aqrar İslahat Komissiyası tərəfindən 28 aprel 2002-ci il tarixdə Zarağan kənd sakini **Əhmədov Nail Nahib oğlunun və ailə üzvlərinin** adına verilmiş JN- 694 F nömrəli (kodu 40608018) **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti tərəfindən Böyük Pirəli kənd sakini **Bayramov Əbutalib Rəsul oğluna** 5 aprel 2011-ci il tarixdə verilmiş (qeydiyyat № 1911000779), seriya MA 0162632 №-li Hüquqların Dövlət qeydiyyatı haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyətinin kollektivi iş yoldaşları **Ətayə Osmanovaya,** yaxın qohumu
**NƏRİMAN MUSAYEVİN**
vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

Qəbələ DİXİHİ Qəbələ Rayon Komitəsinin sədri Fərman Hacıyev rayon icra hakimiyyəti başçısının müavini **Ətayə Osmanovaya,** yaxın qohumu
**NƏRİMAN MUSAYEVİN**
vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzetinin kollektivi rayon icra hakimiyyəti başçısının müavini **Ətayə Osmanovaya,** yaxın qohumu
**NƏRİMAN MUSAYEVİN**
vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

FHN Şimal-qərb Regional Mərkəzinin kollektivi iş yoldaşları **Rövşən Məmmədova,** xalası
**DURSUN XANIMIN**
vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

# Vergi ödəyicilərinin nəzərinə

Hörmətli vergi ödəyicisi!

"Azərbaycan Respublikası vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 oktyabr 2014-cü il tarixli 149 nömrəli qərarında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 10 mart 2015-ci il tarixli 61 nömrəli və 27 may 2015-ci il tarixli 207 nömrəli qərarları ilə büdcə gəlirlərinin təsnifatında bir sıra dəyişikliklər edilmişdir.

Dövlət xəzinədarlıq Agentliyinin məlumat bazasında edilmiş dəyişiklər 1 yanvar 2016-cı il tarixdən tətbiq və istifadə ediləcəkdir.

Dəyişikliklər edilmiş bəzi büdcə gəlirlərinin təsnifatı cədvəldə göstərildiyi kimidir.

**Qeyd:** Büdcə gəlirlərinin təsnifatının tam siyahısı ilə Vergilər Nazirliyinin rəsmi internet səhifəsində tanış ola bilərsiniz (www.taxes.gov.az/tesnifat ).

**10 saylı Ərazi Vergilər İdarəsi.**

**Tədiyyələrin təsnifat kodları**

| S/S | Kodlar | | | | | | Adlar |
|---|---|---|---|---|---|---|---|
| 1. | 1 | 1 | 1 | 1 | 0 | 0 | Fiziki şəxslərin gəlir vergisi |
| 2. | 1 | 1 | 1 | 1 | 1 | 0 | Muzdlu işlə əlaqədar gəlir vergisi |
| 3. | 1 | 1 | 1 | 1 | 1 | 1 | Muzdlu işlə əlaqədar əldə edilən gəlirlərdən gəlir vergisi |
| 4. | 1 | 1 | 1 | 1 | 2 | 0 | Muzdlu işə aid olmayan fəaliyyətdən gəlir vergisi |
| 5. | 1 | 1 | 1 | 1 | 2 | 1 | Muzdlu işə aid olmayan fəaliyyətdən əldə edilən gəlirlərdən gəlir vergisi |
| 6. | 1 | 1 | 1 | 2 | 0 | 0 | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi |
| 7. | 1 | 1 | 3 | 0 | 0 | 0 | Mülkiyyətdən vergilər |
| 8. | 1 | 1 | 3 | 1 | 0 | 0 | Torpaq vergisi |
| 9. | 1 | 1 | 3 | 1 | 1 | 0 | Sənaye, tikinti, nəqliyyat, rabitə, ticarət, məişət xidməti və digər xüsusi təyinatlı torpaqlara görə rezident və qeyri-rezident müəssisələrin torpaq vergisi |
| 10. | 1 | 1 | 3 | 1 | 2 | 0 | Kənd təsərrüfatı təyinatlı torpaqlara görə rezident və qeyri-rezident müəssisələrin torpaq vergisi |
| 11. | 1 | 1 | 3 | 2 | 0 | 0 | Əmlak vergisi |
| 12. | 1 | 1 | 3 | 4 | 0 | 0 | Vərəsəlik və bağışlanma qaydasında mülkiyyətə keçmiş əmlakdan vergilər |
| 13. | 1 | 1 | 4 | 0 | 0 | 0 | Mal və xidmətlərə görə vergilər |
| 14. | 1 | 1 | 4 | 1 | 0 | 0 | Əlavə dəyər vergisi |
| 15. | 1 | 1 | 4 | 3 | 0 | 0 | Sadələşdirilmiş vergi |
| 16. | 1 | 1 | 4 | 3 | 1 | 0 | Hüquqi şəxslər tərəfindən ödənilən sadələşdirilmiş vergi |
| 17. | 1 | 1 | 4 | 3 | 3 | 0 | Digər vergilər |
| 18. | 1 | 1 | 4 | 5 | 0 | 0 | Aksiz |
| 19. | 1 | 1 | 4 | 5 | 2 | 7 | Sair məhsullar |
| 20. | 1 | 1 | 4 | 6 | 1 | 0 | Bələdiyyə mülkiyyətində olan torpaqlarda, binalarda və digər obyektlərdə küçə (divar) reklamının yerləşdirilməsi və yayımı üçün ödənişlər |
| 21. | 1 | 1 | 4 | 7 | 0 | 0 | Yol vergisi |
| 22. | 1 | 1 | 4 | 10 | 6 | 0 | Yerli əhəmiyyətli tikinti materialları |
| 23. | 1 | 1 | 5 | 6 | 1 | 0 | Gömrük rəsmiləşdirilməsinə görə gömrük yığımları |
| 24. | 1 | 1 | 6 | 0 | 0 | 0 | Sair vergilər |
| 25. | 1 | 4 | 1 | 7 | 0 | 0 | İcarə haqqı |
| 26. | 1 | 4 | 2 | 0 | 0 | 0 | Mal və xidmətlərin satışından daxilolmalar |
| 27. | 1 | 4 | 2 | 1 | 0 | 0 | Dövlət əmlakının satışından daxilolmalar |
| 28. | 1 | 4 | 2 | 1 | 8 | 1 | Torpağın satışından daxilolmalar |
| 29. | 1 | 4 | 2 | 1 | 8 | 2 | Qeyri-maddi aktivlərin satışından daxilolmalar |
| 30. | 1 | 4 | 2 | 2 | 0 | 0 | Dövlət rüsumu |
| 31. | 1 | 4 | 2 | 2 | 5 | 0 | Xüsusi razılıq (lisenziya) alınması tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə |
| 32. | 1 | 4 | 2 | 2 | 5 | 2 | Xüsusi razılıq (lisenziya) tələb olunan sahibkarlıq fəaliyyəti növlərinə xüsusi razılıq (lisenziya) verilməsinə görə |
| 33. | 1 | 4 | 2 | 3 | 4 | 0 | Sair daxilolmalar |
| 34. | 1 | 4 | 2 | 4 | 0 | 0 | Mal və xidmətlərin satışından digər daxilolmalar |
| 35. | 1 | 4 | 2 | 0 | 0 | 0 | Cərimə və sanksiyalar üzrə daxilolmalar |
| 36. | 1 | 4 | 3 | 3 | 0 | 0 | Sair cərimə və sanksiyalar |
| 37. | 1 | 4 | 3 | 4 | 3 | 0 | Torpaq vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 38. | 1 | 4 | 3 | 4 | 4 | 0 | Əmlak vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 39. | 1 | 4 | 3 | 4 | 5 | 0 | Əlavə dəyər vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 40. | 1 | 4 | 3 | 4 | 6 | 0 | Aksizlər üzrə maliyyə sanksiyalarından daxil olmalar |
| 41. | 1 | 4 | 3 | 4 | 7 | 0 | Sadələşdirilmiş vergi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 42. | 1 | 4 | 3 | 4 | 8 | 0 | Mədən vergisi üzrə maliyyə sanksiyalarından daxilolmalar |
| 43. | 1 | 4 | 3 | 4 | 9 | 0 | Digər vergi və daxilolmalar üzrə maliyyə sanksiyalarından daxilolmalar |

## Qəbələ Rayon Mərkəzi Xəstəxanası 2016-cı ildə satınalmaları həyata keçirmək üçün aşağıdakı lotlar üzrə katirovka sorğusu ELAN EDİR

1. Əsaslı təmir;
2. Yumşaq inventar;
3. Cari təmir;
4. Dəftərxana ləvazimatı;
5. Avtomobil ehtiyyat hissələri;
6. Mətbəə xərci;
7. İdarənin digər xərcləri;

Sənədləri elan dərc edildikdən sonra 30 gün müddətində aşağıdakı ünvana təqdim etmək lazımdır.

**Ünvan: Abbas Səhhət küçəsi. N-12.**

**Əlaqə telefonu: (024) 20-5-13-46.**

## Zarağan Kənd İnzibati Ərazi Nümayəndəliyi 2016-cı il üçün katirovka sorğusu ELAN EDİR

1. Zarağan kənd uşaq bağçası üçün ərzaq məhsullarının alınması.

Katirovka sorğusu üçün sənədlər **yanvar ayının 5-dək** qəbul olunur.

Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
Q. C. Səmədov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.